

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 179 (21.331)

12 sentyabr 2015-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Sammitində iştirak etmək üçün sentyabrın 10-da Qazaxıstan Respublikasına işgüzar səfərə gedib.

* * *

Sentyabrın 11-də Astanada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayev ilə görüşü olub.

* * *

Qazaxıstanda işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 11-də Qazax xanlığının 550 illik yubileyi münasibətilə Astanadakı Müstəqillik sarayında keçirilən təntənəli mərasimdə iştirak edib.

* * *

Sentyabrın 11-də Astanada Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının V Sammiti keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sammitdə iştirak edib.



## Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi məsələsi diqqət mərkəzindədir

*Dünən Naxçıvan şəhərindəki 12 nömrəli tam orta məktəbdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 27 iyul 2015-ci il tarixli "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" Sərəncamından irəli gələn vəzifələrin icrası ilə bağlı seminar keçirildi.*



Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin təşkilatçılığı ilə keçirilən seminarda Naxçıvan Dövlət və "Naxçıvan" universitetlərinin, Naxçıvan Müəllimlər İnstitutunun, muxtar respublikanın orta ixtisas təhsili müəssisələrinin nümayəndələri iştirak edirdilər.

Seminarda çıxış edən Naxçıvan Muxtar Respublikasının təhsil naziri Piri Nağıyev bildirdi ki, bu gün muxtar respublikamızda təhsilə böyük diqqət və qayğı göstərilir. Son 10 ildə Naxçıvan Muxtar Respublikasında 66 min 736 şagird yerlik 165 məktəb binasının tikilməsi və ya yenidən qurulması bunun bariz nümunəsidir. Hazırda ümumtəhsil məktəblərində 3700 kompüter, 600-dən çox elektron lövhə vardır. Məktəblərdə interaktiv tədris metodlarından istifadə olunur, elektron və distant təhsil tətbiq edilir. Həyata keçirilən bu tədbirlər təhsildə keyfiyyət göstəricilərinin artmasına səbəb olub. Belə ki, muxtar respublikada 2015-ci ildə məktəbi bitirən 3331 məzundan 2638-i ali məktəblərə qəbul üçün sənəd verib, onlardan 1582-si tələbə adını qazanıb. Bu da sənəd verənlərin 60 faizini təşkil edir.

Qeyd olundu ki, məzunlar ixtisas seçimi zamanı muxtar respublikada fəaliyyət göstərən ali təhsil müəssisələrinə daha çox üstünlük veriblər. 2015-ci ildə 1137 nəfər, yaxud qəbul olunanların 72 faizi Naxçıvan Muxtar Respublikasında yerləşən ali təhsil müəssisələrini seçiblər. Yüksək bal toplayanlar arasında ucqar dağ kəndlərindəki məktəblərin məzunlarının da olması muxtar respublikamızda təhsilimizin bütün bölgələrdə inkişaf etdiyini göstərir.

Piri Nağıyev vurğuladı ki, bu gün muxtar respublikada ali və orta ixtisas təhsili müəssisələrində təhsil alanların yüksək intellektual səviyyəyə və praktik iş qabiliyyətinə yiyələnmələri daim diqqətdə saxlanılır. Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi muxtar respublikada yerləşən ali və orta ixtisas təhsili müəssisələri ilə daim əlaqələrini genişləndirərək pedaqoji profilli ixtisaslıların təcrübələrinin tam orta məktəblərdə keçirilməsi prosesində yaxından iştirak edir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 27 iyul 2015-ci il tarixli "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" Sərəncamından irəli gələn vəzifələrin vaxtında və ardıcıl icrası mühüm əhəmiyyət kəsb edir.

Naxçıvan Muxtar Respublikası təhsil nazirinin müavini Məmməd Qəribov bildirdi ki, qeyd olunan sərəncam təhsil ictimaiyyəti tərəfindən yüksək dəyərləndirilir. Bu gün muxtar respublikanın Təhsil Nazirliyi sənəddə qarşıya qoyulan vəzifələrin icrası istiqamətində işləri davam etdirir. Yeni tədris ilində ali təhsil müəssisələri ilə əlaqələrin genişləndirilməsi, Təhsil Nazirliyinə hamiliyə verilən ixtisaslar üzrə təhsil alan tələbələr ilə ardıcıl işlərin aparılması daim diqqət mərkəzində saxlanılacaq.

Qeyd olundu ki, Təhsil Nazirliyində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamından irəli gələn məsələlərin həlli istiqamətində işlər planlı şəkildə həyata keçirilir. Artıq sərəncamla bağlı tədbirlər planı hazırlanıb. Tələbələrlə seminar və iclasların keçirilməsi nəzərdə tutulur. Bu işlərin davamı kimi, müasir təhsil sistemində pedaqoji yeniliklərin, fənn kurikulumlarının və yeni təlim texnologiyalarının tətbiqi ilə aparılan tədris prosesinin üstünlüklərinin tələbələrə aşılanması təmin ediləcəkdir. Ümumtəhsil məktəblərində tətbiq olunan yeni dərsliklər, dərs vəsaitləri və elektron tədris vasitələrindən səmərəli istifadə yolları təcrübi şəkildə öyrədiləcəkdir. Hamiliyə verilmiş tələbələrə pedaqoji təcrübə zamanı məktəblilərə müasir yanaşma formaları, müəllim-şagird-valideyn əlaqələrinin yaradılması, məktəbə rəhbərliyin metodları, şagirdlərlə psixoloji işin aparılması yolları, ümumilikdə, təhsil sahəsində mövcud olan bütün yeniliklərin çatdırılması həyata keçiriləcəkdir.

Naxçıvan Dövlət Universitetinin tədris işləri üzrə prorektoru, filologiya üzrə fəlsəfə doktoru Surə Seyid, Naxçıvan Müəllimlər İnstitutunun tədris işləri üzrə prorektoru, filologiya elmləri doktoru Akif İmanlı, Naxçıvan Musiqi Kollecinin direktoru Həsən Seyidov, "Naxçıvan" Universitetinin İdarəetmə fakültəsinin dekanı, tarix üzrə fəlsəfə doktoru Elbrus İsayev çıxış edərək sərəncamdan irəli gələn vəzifələrin icrasından söhbət açdı, bunula bağlı təkliflərini səsləndirdilər.

Daha sonra mövzu ətrafında verilən suallar cavablandırıldı.

Seminara Naxçıvan Muxtar Respublikasının təhsil naziri Piri Nağıyev yekun vurdu.

**Rauf ƏLİYEV**

## Daşınmaz əmlak və torpaq münasibətlərinin tənzimlənməsi sahəsində işlər davam etdirilir

*Muxtar respublikamızda daşınmaz əmlakın dövlət reyestrinin aparılmasında operativliyin təmin edilməsi, eləcə də torpaqlardan təyinatı üzrə istifadə edilməsinə dövlət nəzarəti sahəsində Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin üzərinə mühüm vəzifələr düşür.*

Daşınmaz əmlakın hüquqi ekspertizası və reyestrinin aparılması sahəsində görülən məqsədyönlü işlər nəticəsində ötən ay muxtar respublika üzrə 164 torpaq, 1 qeyri-yaşayış sahəsi, 64 mənzil, 131 fərdi yaşayış evi, 1 çoxmərtəbəli yaşayış, 4 qeyri-yaşayış binası, 3 əmlak kompleksi kimi müəssisə olmaqla, cəmi 368 daşınmaz əmlak obyekti qeydiyyata alınmışdır. Daşınmaz əmlakın inventarlaşdırılması və qiymətləndirilməsi istiqamətində daxil olmuş müraciətlər əsasında 289 texniki sənəd hazırlanmışdır. Dövlət qeydiyyatına alınacaq əmlaklara texniki sənədlərin hazırlanması üçün, ümumilikdə, 308 əmlaka yerində baxış keçirilərək müayinə aktı tərtib edilmiş, əmlakların bölünməsi və birləşməsi zamanı əməliyyatların natura və kameral şəraitdə düzgün aparılmasına nəzarət gücləndirilmişdir.

Ötən ay muxtar respublikada ilkin qeydiyyat, bölünmə və birləşmə nəticəsində yaranmış 75 yeni daşınmaz əmlak obyektinə ünvanlar verilmiş və ünvan reyestrinin elektron xəritələri üzərinə köçürülmüşdür.

Naxçıvan şəhər dövlət ehtiyat fondu və qış otlaq sahələrində olan əkinəyararlı torpaq sahələrinin əkin dövriyyəsinə cəlb olunması məqsədilə ərazilər kameral şəraitdə müəyyənləşdirilmiş, Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin və komitənin Naxçıvan Şəhər İdarəsinin mütəxəssisləri ilə birlikdə ölçü işləri aparılmış, 25 hektar dövlət ehtiyat fondu torpaqlarında, 177 hektar isə qış otlaq sahələrində əkinəyararlı torpaq sahələri ölçülərək xəritələşdirilmişdir.

Culfa rayonunun Şurud kəndinin sərhəd xəritələrinə dair müvafiq yerquruluşu sənədləri elektron variantda hazırlanmış və torpaqların növləri üzrə uçotu aparılmışdır. Şərur şəhəri və rayonun Dərvişlər, Vərməziyar, Yengicə, Tənənəm, Dərəkənd və Oğlanqala kəndlərinin ərazisində mövcud mülkiyyət növləri üzrə torpaq sahələrinin elektron torpaq kadastr xəritələri hazırlanmış, kadastr xəritələrinin məlumatları ilə torpaq reyestrində saxlanılan məlumatların uyğunluğu yoxlanılmışdır.

Komitənin Ordubad, Şahbuz və Sədərək rayon idarələrinin komitə ilə elektron əlaqəsini təmin edən fiber-optik xətt Rabitə və Yeni Texnologiyalar Nazirliyi tərəfindən həmin idarələrin fəaliyyət göstərdiyi yeni ünvanlara köçürülmüşdür. Avqust ayında Şərur rayonunun Vərməziyar və Muğanlı, Culfa rayonunun Əlincə və Xoşkeşin, Ordubad rayonunun Yuxarı Əylis və Yuxarı Əndəmic, Babək rayonunun isə Kalbaoruc Dizə və Kərimbəyli kəndlərində vətəndaşlara səyyar xidmət göstərilmişdir.

Dövlət Yerquruluşu, Geodeziya və Xəritəçəkmə Layihə İnstitutu tərəfindən Şərur rayonunun Yeni Havuş və Xətai, Sədərək rayonunun Sədərək və Qaraağac kəndlərinin, eləcə də Heydərabad qəsəbəsinin yerquruluşu planları, Kəngərli rayonunun Qıvraq qəsəbə, Qabıllı, Yurdçu, Şərur rayonunun Mahmudkənd, Dərəkənd və Danyeri kəndlərinin kartoqramları hazırlanmışdır. "Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası ilə bağlı Naxçıvan şəhəri, Şərur, Babək və Kəngərli rayonlarının dövlət ehtiyat fondu və qış otlaq sahələrində olan əkinəyararlı torpaq sahələrinin əraziləri müəyyənləşdirilmiş, Şərur rayonunun Dərvişlər, Tənənəm, Dərəkənd, Oğlanqala kəndlərinin və Şərur şəhərinin həyətyanı və çöl pay torpaqlarının ortofotoplana əsasən, yerləri dəqiqləşdirilərək xəritələri hazırlanmışdır. Hazırda institutun mütəxəssisləri tərəfindən Babək rayonunun Babək qəsəbəsində həyətyanı torpaq sahələrinin elektron taxeometr vasitəsilə yerquruluşu planlaşma işləri aparılır.

Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsi muxtar respublikamızda torpaqlardan təyinatı üzrə səmərəli istifadə edilməsi və vətəndaşların mülkiyyət hüquqlarının dövlət reyestrində qeydiyyata alınmasında operativliyin təmin edilməsi istiqamətində səylərini daha da artıracaqdır.

***Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## Müasir informasiya texnologiyalarının tətbiqi genişləndirilir

*Muxtar respublikada yeni texnologiyaların tətbiqi və abonentlərə keyfiyyətli rabitə xidmətinin göstərilməsi işi avqust ayında da davam etdirilmişdir.*

Ay ərzində təmir-tikinti işləri ilə əlaqədar yaşayış məntəqələrində 12 min 479 metr məsafədə yeraltı fiber-optik kabel xətti çəkilmiş, 234 yeni nömrə istismara verilmişdir. İnternet resurslarından istifadə imkanlarının genişləndirilməsi istiqamətində də işlər davam etdirilmiş, Naxçıvan Muxtar Respublikası İnternet və Yeni Texnologiyaların Tədrisi Mərkəzində kompüter kursları üzrə 3 ümumi və 17 fərdi qrup yaradılmışdır. Bundan əlavə, genişzolaqlı internetdən istifadəyə görə artan tələbat nəzərə alınaraq Babək rayonunun Şəkərabad və Ordubad rayonunun Unus kəndlərinin hər birində 48 portluq əlavə, Babək rayonunun Nəhəcir, Ordubad rayonunun Üstüpü və Çənnəb kəndlərinin hər birində 48 abunəlik yeni DSLAM avadanlıqları quraşdırılaraq istifadəyə verilmişdir.

"Naxtel" simsiz rabitə operatorunun abunəçiləri yaxın gələcəkdə texnologiyanın ən son yeniliklərindən olan 4G mobil rabitəsindən istifadə edə biləcəklər. Bu məqsədlə muxtar respublika ərazisində 4G şəbəkəsi yaradılır. Ötən ay bu istiqamətdə işlər uğurla davam etdirilmiş, 20 məntəqədə baza stansiyaları qurulmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisində payız-qış mövsümünə hazırlıqla bağlı keçirilən müşavirədə verilən tapşırıqların icrası istiqamətində işlər növbəti aylarda da davam etdiriləcək, qış aylarında rabitə xidmətinin fasiləsiz və nümunəvi təşkili təmin olunacaqdır.

**Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti**

## Payız-qış mövsümünə hazırlıqla bağlı müzakirələr davam etdirilir



*Sentyabrın 11-də Naxçıvan Biznes Mərkəzində Naxçıvan Muxtar Respublikası İqtisadiyyat və Sənaye Nazirliyi kollektivinin və sahibkarların iştirakı ilə payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə bağlı tədbir keçirilib.*

Tədbirdə Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat və sənaye naziri Famil Seyidov məruzə ilə çıxış edərək bildirib ki, əhalinin payız-qış mövsümündə meyvə və tərəvəz məhsullarına olan tələbatının ödənilməsində soyuducu anbarlar mühüm əhəmiyyət kəsb edir. Məhz bu faktor nəzərə alınaraq ötən müddət ərzində dövlət dəstəyi ilə 19 hüquqi və fiziki şəxs tərəfindən ümumi tutumu 12.610 ton olan 21 soyuducu anbar istifadəyə verilib və yeni soyuducu anbarların yaradılması istiqamətində sahibkarlar arasında maarifləndirmə işləri davam etdirilir. 2015-ci ildə meyvə-tərəvəz məhsullarının saxlanılması üçün tutumu 350 ton olan bir anbar istifadəyə verilib.

Qeyd olunub ki, 2015-2016-cı ilin payız-qış mövsümünə hazırlıqla əlaqədar meyvə-tərəvəz məhsullarının tədarük olunması məqsədilə soyuducu anbarların və istixana komplekslərinin sahibkarları arasında maarifləndirmə işləri aparılıb, mövsüm ərzində tələbatdan artıq istehsal edilmiş məhsulların anbarlara tədarük olunması məqsədilə kütləvi informasiya vasitələrində elanlar verilib, istehsalçı və tədarükçü sahibkarların fəaliyyətinin əlaqələndirilməsi təmin edilib. “Naxçıvan Meyvə-Tərəvəz Məhsulları” Məhdud Məsuliyyətli Cəmiyyəti və digər soyuducu anbarların sahibkarları tərəfindən kənd icra nümayəndələri ilə əlaqə yaradılıb, satış qiymətləri razılaşdırılıb və təklif olunduğu halda məhsulların anbarlara tədarükü həyata keçiriləcəkdir.

Tədarük olunan məhsulların normativ qaydalara uyğun saxlanılması məqsədilə “İstehlak Mallarının Ekspertizası Mərkəzi” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən həmin məhsulların qəbul və saxlama tələbləri hazırlanaraq soyuducu anbarların sahibkarlarına təqdim olunub.

Vurğulanıb ki, 1 iyul 2013-cü il tarixdən 10 sentyabr 2015-ci il tarixədək muxtar respublika ərazisində fəaliyyət göstərən soyuducu anbarlara cəmi 870 ton olmaqla, 765 ton kartof, 59 ton soğan, 29 ton ərik, 10 ton şaftalı, 4 ton alma və 3 ton kələm tədarük olunub.

Muxtar respublikada əhalinin qış mövsümündə keyfiyyətli tərəvəz məhsulları ilə təmin olunmasında istixana kompleksləri mühüm əhəmiyyət kəsb edir. Bu sahəyə göstərilən qayğı nəticəsində bu gün muxtar respublikada tərəvəz yetişdirilən istixana komplekslərinin ümumi sahəsi 100 min kvadratmetri ötüb. 2015-ci ildə ümumi sahəsi 2860 kvadratmetr olan 4 istixana kompleksi istifadəyə verilib, ümumi sahəsi 5000 kvadratmetr olan 2 istixana kompleksinin qurulması isə davam etdirilir.

Bildirilib ki, 1 yanvar 2015-ci il tarixdən 10 iyul 2015-ci il tarixədək istixana komplekslərində 1176 ton məhsul istehsal olunaraq satışı həyata keçirilib. Payız-qış mövsümü üçün istixana komplekslərində 60 min 320 kvadratmetr sahədə pomidor, 29 min 736 kvadratmetr sahədə xiyar, 2 min kvadratmetr sahədə çiyələk, 150 kvadratmetr sahədə isə göbələk əkini həyata keçirilib və sentyabrın 15-dən sonra məhsulların istehlakçılara təklif olunması nəzərdə tutulur.

Famil Seyidov qeyd edib ki, bu gün muxtar respublikada fəaliyyəti bərpa edilmiş və ya yenidən qurulmuş istehsal müəssisələrində 119 növdə, 507 çeşiddə ərzaq, 238 növdə, 599 çeşiddə qeyri-ərzaq olmaqla, cəmi 357 növdə, 1106 çeşiddə məhsul istehsal olunur. Müəssisələr 107 növdə ərzaq, 229 növdə qeyri-ərzaq olmaqla, cəmi 336 növdə məhsula olan tələbatı tamamilə yerli istehsal məhsulları hesabına ödəmə gücünə malikdir.

Tədbirdə payız-qış mövsümünə hazırlığın yüksək səviyyədə aparılması məqsədilə 15 noyabr 2015-ci il tarixədək soyuducu anbarların yerli istehsal məhsulları ilə tam doldurulmasının təmin edilməsi, meyvə-tərəvəz məhsullarının tədarükü və satışı zamanı süni qiymət artımı və razılaşdırılmış qiymətlərin tətbiqinin qarşısının alınması, istixana komplekslərindən səmərəli istifadə edilməsi və digər məsələlərə toxunulub.

Sonra məruzə ətrafında çıxışlar olub.

* * *

*Sentyabrın 11-də “Naxçıvanqaz” İstehsalat Birliyində də payız-qış mövsümünə hazırlığın vəziyyəti və qarşıda duran vəzifələrə həsr olunmuş iclas keçirilib. İclasda “Naxçıvanqaz” İstehsalat Birliyinin direktoru Ramin İsmayılov məruzə ilə çıxış edib.*



Bildirilib ki, avqustun 28-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2015-2016-cı ilin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar müşavirə keçirilib və digər təşkilatlarla yanaşı, “Naxçıvanqaz” İstehsalat Birliyinin də qarşısında mühüm vəzifələr qoyulub.

Qeyd olunub ki, “Naxçıvanqaz” İstehsalat Birliyi davamlı və dayanıqlı təbii qazla təminat üçün qaz təchizatı sistemində texniki baxış tədbirlərini davam etdirir, təbii qaz nəqlinin soyuq hava şəraitinə uyğun gələn texnoloji rejimdə həyata keçirilməsi üçün tədbirlər görür. Yerlərdə istismara yararsız vəziyyətə düşmüş qaz xətlərinin və avadanlıqlarının müəyyən edilərək yenilənməsinə nəzarət artırılıb, sayğacdankənar istifadə hallarının qarşısının alınması üçün tədbirlər görülüb. Naxçıvan şəhərində mövcud sayğacların smart-karttipli sayğaclarla əvəzlənməsi davam etdirilir.

Bildirilib ki, muxtar respublika üzrə 1 sentyabr 2015-ci il tarixə təbii qaz istehlakçılarının ümumi sayı 85 min 20, o cümlədən 83 min 155 əhali abonenti və 1865 qeyri-əhali abonenti olub. Cari ilin ötən dövründə 943 abonent, o cümlədən 832 əhali abonenti və 111 qeyri-əhali abonenti tərəfindən daxil olan müraciətlərə əsasən, ev, mənzil və müxtəlif təyinatlı obyektlər qazlaşdırılıb.İstehlakçıların təbii qazla fasiləsiz təmin edilməsi ilə yanaşı, bu sahədə infrastrukturun təkmilləşdirilməsi məsələləri də diqqət mərkəzində saxlanılır.Yeni sosial və inzibati obyektlərin tikilməsi, yolların genişləndirilməsi ilə əlaqədar daşıyıcı-paylayıcı qaz kəmərlərinin yerləri dəyişdirilib və yeni qaz xətləri çəkilib.

Əhali qrupu üzrə təbii qaz istehlakçılarının mavi yanacaqdan istifadəsində müasir standartlara cavab verən texnologiyalardan istifadə etmək məqsədilə Naxçıvan şəhərində ön ödənişli smartkarttipli qaz sayğaclarının quraşdırılmasına başlanılıb. İlkin olaraq, sifariş əsasında Türkiyə istehsalı olan 10 min ədəd sayğac gətirilib. Sayğacların kənar müdaxilələrdən mühafizəsi üçün qutular alınıb. Sayğacların hər biri Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsində dövlət qeydiyyatından keçirilir.

“Naxçıvanpoçt” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən müvafiq sayda ödəmə məntəqələri yaradılıb. Həmin məntəqələr müasir avadanlıqlarla təmin edilib.

Vurğulanıb ki, qaz təsərrüfatında, xüsusilə qəza xidmətində çalışanların peşəkarlıq səviyyəsinin artırılması üçün Naxçıvan Regional Peşə Tədris Mərkəzində Qaz təsərrüfatı avadanlıqlarının istismarı və təmiri üzrə nəzarətçi-çilingər peşəsi üzrə kadr hazırlığı kursu fəaliyyət göstərir. Bu sahəyə xüsusi diqqət yetirilir, işçilərin kurslara cəlb olunması davam etdirilir.

Qəza hallarının aradan qaldırılmasında operativliyin təmin edilməsi, yeni qaz xətləri çəkilərkən və bərpa olunarkən mövcud standartların tələblərinin gözlənilməsinə diqqətin artırılması, yaradılmış mal və material ehtiyatlarından səmərəli istifadə edilməsi, işlənən materialların yerinə yenilərinin alınıb gətirilməsi, ehtiyatın yaradılması və işçilərin qış mövsümünə uyğun xüsusi geyim və avadanlıqlarla təmin olunması diqqət mərkəzində saxlanılır.

Avtomat qazpaylayıcı stansiyalarda avadanlıqlara texniki xidmət işləri qrafik üzrə müəyyən olunan vaxtlarda aparılıb. Təbii qazın mexaniki qarışıqlardan təmizlənməsi üçün tətbiq olunan qaztəmizləyici seperator və süzgəclərə, texnologiyaya uyğun qurulmuş bağlayıcı avadanlıqlara, təzyiq tənzimləyicilərinə, qaz sərfinin hesablanması üçün qaz sərfini ölçən cihazlara, elektrokimyəvi mühafizə qurğularına və bütün texnoloji avadanlıqlara zəruri texniki xidmət göstərilib, sıradan çıxan hissələr yenisi ilə əvəz olunub.

Sonra məruzə ətrafında çıxışlar olub. Şəhər və rayon Qaz İstismarı idarələri tərəfindən görülmüş işlər ətraflı təhlil olunub, payız-qış mövsümünə hazırlıqla əlaqədar qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi ilə bağlı görüləcək işlər müəyyənləşdirilib.

**Xəbərlər şöbəsi**

***Əlincə çayının sağ sahilində bir kənd var. Tarixi mənbələrdə bu kəndin adı 1590-cı ildə “Saltaq”, 1727-1728-ci illərdə “Zaltaq” kimi göstərilir. Tədqiqatçılar “Saltaq” adının mənşəyini qədim türk Sal tayfa adı ilə əlaqələndirirlər.***

## Qədim yurd yerinin yeni növrağı

AMEA-nın müxbir üzvü Adil Bağırova görə, Sal tayfası kəngərlilərin salayçı qolunun adı ilə bağlıdır və alimin gəldiyi nəticə bundan ibarətdir ki, Sal tayfa adı ilə tag (dağ) sözünün birləşməsindən əmələ gələn Saltaq oykonimi “salayçılara məxsus dağ”, “Sal tayfası yaşayan dağ, yer, kənd, məskən” mənasında işlənir. Yenə də mənbələrə görə, Saltaq kəndində ilk məskunlaşma IX-X əsrlərdən başlamışdır. Bu qədim yurd yerində X əsr qədim yaşayış yeri və XIV-XVI əsrlərdən qalma iki nekropol ərazisi vardır. Bir sözlə, muxtar respublikamızın əksər yaşayış məntəqələri kimi özünəməxsus gözəlliyi olan, Haçadağa söykənən Saltaq kəndi həm keçmişi, həm də bu günü ilə fəxr edə bilər.

Saltaq kəndi rayon mərkəzindən 30 kilometr uzaqlıqda yerləşir. Son 20 ilin quruculuq ərməğanlarını bu kəndə gedəndə də görmək mümkündür. Yolboyu keçdiyimiz Ərəzin, Əbrəqunus, Bənəniyar kəndləri rahat yolları, müasir tikililəri, gözoxşayan yaşıllıqları ilə insanın könlünü oxşayır. Yaşı qədimdən də qədim olan Haçadağa, Əlincə dağına aparan bu yollar hər qarışı ilə tarix və müasirliyin vəhdətini ortaya qoyur. Təbii ki, insan əli ilə yaradılmış bu gözəlliklərdən Saltaq kəndinə də böyük pay düşüb. Xatırladaq ki, Sovetlər Birliyi dövründə digər kəndlərimiz kimi, Saltaq kəndi də gözdənuzaq, könüldəniraq yaşayış yerlərindən olub. Kənd rayonun digər ucqar dağ kəndlərinə gedən yolun üstündə yerləşsə də, hər şey indiki kimi rahat olmayıb. Buranın insanları keçmiş zamanlardan əkinçilik və heyvandarlıqla məşğul olublar, öz zəhmətləri ilə dolanışıqlarını təmin etməyə çalışıblar. Bir zamanlar Saltaqda geniş üzüm sahələri olub. Əhali üzümçülüyə böyük maraq göstərib, kənddə yaşayan ailələrin böyük bir qisminin məşğuliyyəti üzümçülük olub. Ancaq “sovet yenidənqurması”nın sərt dalğası buradakı üzüm bağlarını da məhv edib. İndi isə vəziyyət tamamilə dəyişib.

Kənddə olarkən öyrənirik ki, hazırda burada 1650 nəfər yaşayır. Təsərrüfat sayı isə 450-yə çatır. Kəndin 200 hektara yaxın əkin sahəsi vardır ki, bunun da 102 hektarını sututar ərazilər, 98 hektarını isə dəmyə sahələr tutur. Vətəndaşlara məxsus həyətyanı sahələr isə 68 hektar təşkil edir. Kəndin icra nümayəndəsi Bəşir Ağayev bildirir ki, bu il kənddə camaat bol məhsul yetişdirib. 70 hektar sahədə taxıl əkini aparılıb ki, bunun da 50 hektarını buğda, 20 hektarını isə yazlıq arpa təşkil edib. Biçin vaxtında aparılıb, taxıl itkisiz toplanıb. Müsahibimiz bildirir ki, son illərdə taxılçılığın inkişafına göstərilən dövlət dəstəyi təsərrüfatçıların bu əkin növünə marağını artırıb. Əldə olunan məhsulun bazarı olduğundan digər əkin növləri üçün də bunu demək mümkündür. Kəndin zəngin üzümçülük ənənələri Məsumalı Səfərov, Həsən Nəcəfov kimi təsərrüfatçılar tərəfindən davam etdirilir. Həsən Nəcəfov qeyd edir ki, kəndimizin torpaqları üzümçülük üçün çox əlverişlidir. Bu torpaqlarda ağ aldərə, hənəqırna, sarı və qara kişmişi kimi üzüm sortları yetişdirilir. Bu il isə üzüm bol olub. Hazırda bu məhsulun yığım dövrüdür. İnanıram ki, 3-4 ton üzüm tədarük edə biləcəyik. Həmsöhbətimiz təsərrüfatdan əldə edilən məhsulun satışında hər həftəsonu rayon mərkəzində və Naxçıvan şəhərində təşkil olunan kənd təsərrüfatı məhsullarının satış yarmarkalarının da böyük rolu olduğunu vurğulayır. Kənd sakinləri ilə söhbətimizdə onu da öyrənirik ki, bu il həyətyanı sahələrdə də məhsul yaxşı olub. Kənd sakinləri bu cür sahələrdə, əsasən, ailənin ehtiyacı üçün nəzərdə tutulmuş tərəvəz məhsulları yetişdirirlər.

Kənddə heyvandarlığın inkişafı da diqqət mərkəzində saxlanılır. Rafiq Kazımov təsərrüfatında 80 baş, Fərhad Quliyev isə 120 baş xırdabuynuzlu heyvan saxlayır. Əhalinin sosial rifah halının yaxşılaşmasının nəticəsidir ki, kənddə son illərdə yeni evlərin sayı da artır. Son bir-iki ildə kənddə 7 yeni ev tikilib və evlərin ümumi sayı 310-a çatıb.

Saltaq kəndində əhalinin əsas məşğuliyyəti təsərrüfatın müxtəlif sahələri olsa da, digər sahələrdə çalışanlar da az deyil. Məsələn, son illərdə burada 3 çörək istehsalı müəssisəsi yaradılıb. Bundan əlavə, kənddə 2 plastik qapı-pəncərə, 1 dülgər sexi, 5 ərzaq mağazası da fəaliyyət göstərir.

Vurğulamaq lazımdır ki, muxtar respublikamızın əksər kəndlərində aparılan kompleks quruculuq işlərindən Saltaq kəndinə də pay düşüb. Belə ki, cari ilin mart ayından kənddə zirzəmi ilə birlikdə dördmərtəbəli məktəb binasının tikintisinə başlanılıb. 215 şagird yerlik məktəb binasının tikintisini Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Culfa Rayon İdarəsinin inşaatçıları aparırlar. Müasir layihə əsasında tikilən məktəb binasında yaradılan şərait tədrisin yüksək səviyyədə aparılmasına imkan verəcəkdir. Yeri düşmüşkən onu da qeyd edək ki, Saltaq kənd tam orta məktəbinin məzunları həm ötən tədris ilində, həm də bu il yüksək nəticələr əldə ediblər. 2014-2015-ci tədris ilində məktəbin 17 nəfər məzunu olub. Bu məzunlardan 12 nəfəri ali məktəblərə sənəd verib, 7-si tələbə adını qazanıb. Qəbul olunanlardan 4 nəfəri 500-700 arası bal toplayıb. Məktəbin 2 məzunu isə Heydər Əliyev adına Hərbi Liseyə qəbul olub.

Kənddə aparılan quruculuq tədbirləri sırasında yeni sosial obyektlərin yaradılması da mühüm əhəmiyyət kəsb edir. Belə ki, kənddə mövcud olan köhnə məktəb binası müasir layihə əsasında yenidən qurulur ki, burada da kənd və xidmət mərkəzləri, eyni zamanda həkim ambulatoriyası yerləşəcək. Bundan əlavə, ötən dövr ərzində kəndin yollarında əsaslı yenidənqurma işləri aparılıb, 12 poqonometrlik körpü salınıb. Bir sözlə, görülən bütün bu işlər Saltaq kəndinin simasına yeni bir gözəllik qatmaqla bərabər, əhalinin rahat yaşamaq imkanlarına da öz töhfəsini verəcək.

*Bəli, Culfa rayonunun Saltaq kəndi bu gün özünün hərtərəfli inkişaf dövrünü yaşayan kəndlərimizdəndir. Həyata keçirilən tədbirlər yaxın gələcəkdə tarixi ənənələrə malik Saltağı həm də müasirliyi ilə diqqət mərkəzinə çevirəcək. Axı Saltaq kəndi həm də Əlincəqala kimi tarixi turizm məkanına gedən avtomobil yolunun üzərində yerləşir.*

**Səbuhi HƏSƏNOV**

***Dastan yaradıcılığı dünya ədəbiyyatında ayrı-ayrı xalqların müxtəlif tarixi dövlətlərdə ədəbi-bədii, ictimai-siyasi düşüncəsini əks etdirən şifahi yaradıcılıq sahələrindən biridir. Xalqımızın həyatını, məişətini, adət və ənənələrini özündə əks etdirən, Türk dünyasının qədim mədəniyyət abidələrindən, bədii və fəlsəfi təfəkkürümüzün ən nadir incilərindən sayılan “Kitabi-Dədə Qorqud” xüsusi maraq doğurur. Elə buna görə də alman şərqşünası Fridrix Fon Dits tərəfindən 1815-ci ildə alman dilinə tərcüməsi və nəşrindən bu günə qədər dastana olan maraq azalmamış, dünyanın çox məşhur alimləri tərəfindən ona dəfələrlə müraciət edilmişdir.***

# “Kitabi-Dədə Qorqud” tariximizin aynasıdır



“Kitabi-Dədə Qorqud” oğuz türklərinin dastanıdır. Dastanın ilk mötəbər tədqiqatçılarından V.V.Bartold onun Qafqaz mühitində yarandığını qeyd edir. “Kitabi-Dədə Qorqud”un mükəmməl nəşrini çap etdirən böyük türk alimi O.Ş.Gökyay Drezden nüsxəsində açıq olaraq “Azərbaycan şivəsi özəllikləri gözə çarpmaqdadır” – deyir. Fuad Köprülü, Məhərrəm Ergin kimi nüfuzlu qorqudşünasların, habelə V.V.Bartold, V.M.Jirmunski, A.H.Kononov, A.Y.Yokubovski kimi rus türkoloqlarının, təbii ki, tanınmış Azərbaycan filoloqlarının dəfələrlə təsdiq etdikləri kimi “Kitabi-Dədə Qorqud” dil xüsusiyyətləri, cərəyan edən hadisələrin coğrafi məkanı baxımından daha çox Azərbaycanla bağlıdır. Ümummilli lider Heydər Əliyev “Kitabi-Dədə Qorqud”la əlaqədar keçirilən Dövlət Komissiyasının iclasında demişdir: ***“Kitabi-Dədə Qorqud” dastanı bütün Türk dünyasına məxsusdur, onun vətəni Azərbaycandır, sahibi Azərbaycan xalqıdır, müstəqil Azərbaycan dövlətidir”.***

“Kitabi-Dədə Qorqud” dastanlarının Azərbaycan xalqının ictimai-siyasi və mədəni həyatında mühüm rolunu nəzərə alan görkəmli dövlət xadimi Heydər Əliyev dastanların dünya miqyasında təbliği, əks etdirdiyi vətənpərvərlik ideyalarının genişləndirilməsi üçün “Kitabi-Dədə Qorqud” dastanlarının 1300 illiyi haqqında 20 aprel 1997-ci ildə xüsusi fərman imzalamışdır. Bu fərman əsasında həyata keçirilmiş genişmiqyaslı tədbirlər, sözün böyük mənasında, “Dədə Qorqud” dastanlarının yenidən doğuluşu və əbədiyyət qazanması hadisəsinə çevrilmişdir. Həmin tarixi fərmandan sonra Dədə Qorqudun adının Azərbaycanda, eləcə də Naxçıvan Muxtar Respublikasında əbədiləşdirilməsi sahəsində müxtəlif tədbirlər həyata keçirilmişdir. İkicildlik “Kitabi-Dədə Qorqud” ensiklopediyasının, onlarla kitab və monoqrafiyaların nəşri, beynəlxalq və respublika səviyyəli konfrans və simpoziumların keçirilməsi, dünyanın tanınmış qorqudşünas alimlərinin Azərbaycana gəlməsi və tədbirlərdə iştirak etmələri məhz 1300 illik yubileyin yüksək səviyyəsindən xəbər verirdi. Naxçıvan şəhərində 1999-cu ildə Dədə Qorqudun abidəsinin ucaldılması, Naxçıvanda və Van şəhərində beynəlxalq simpoziumun keçirilməsi, simpoziumda elm adamları ilə birgə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin və dövlət nümayəndələrinin iştirak etmələri bu işə nə qədər böyük əhəmiyyət verildiyini bir daha göstərdi. Görkəmli dövlət xadimi Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasına səfəri zamanı Naxçıvan şəhərindəki Dədə Qorqud abidəsini ziyarət etməsi “Kitabi-Dədə Qorqud” dastanının, onun qəhrəmanlarının Azərbaycan Respublikası üçün nə qədər önəmli olduğunun bariz ifadəsidir.

Azərbaycan Prezidenti cənab İlham Əliyev ulu öndər Heydər Əliyevin siyasi kursunu və strateji xəttini ən yüksək səviyyədə həyata keçirir. Ölkə rəhbəri “Kitabi-Dədə Qorqud” dastanlarına münasibətində də ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi siyasəti yaradıcılıqla inkişaf etdirir, Dədə Qorqudun adının əbədiləşdirilməsinə dair ölkə miqyasında müxtəlif tədbirləri ardıcıl olaraq həyata keçirir. Prezident İlham Əliyevin 2004-cü ildə Belçikanın paytaxtı Brüssel şəhərində, Dünya Gömrük Təşkilatının iqamətgahı qarşısında Dədə Qorqud abidəsinin açılışında iştirak və çıxış etməsi möhtəşəm epsona verdiyi dəyərin yüksək ifadəsi idi.

Dövlət başçısının 2007-ci ildə imzaladığı “Azərbaycandakı monumental heykəltəraşlıq abidələri, memorial və memarlıq kompleksləri haqqında” Sərəncama əsasən, Dədə Qorqud heykəli və “Dədə Qorqud dünyası” tarixi-etnoqrafik kompleksinin yaradılması ilə bağlı müvafiq tədbirlərin görülməsi haqqında tapşırıq verilmişdir. Bakının Nərimanov rayonunda 6 hektar ərazidə Dədə Qorqud parkı salınmış, parkın mərkəzində “Kitabi-Dədə Qorqud” abidəsi ucaldılmışdır. Azərbaycan Prezidenti cənab İlham Əliyev 2013-cü il dekabrın 13-də Dədə Qorqud kompleksinin açılış mərasimində çıxış edərək demişdir: ***“Kitabi-Dədə Qorqud” Azərbaycan xalqının milli sərvətidir. Bu əsərdə Azərbaycan xalqının keçmiş həyat tərzi, məişəti, psixologiyası əks olunmuşdur... Bu dastan hər bir azərbaycanlı üçün əzizdir. Bu abidənin ucaldılması Azərbaycan xalqının bir daha öz tarixi keçmişinə, mədəniyyətinə olan münasibətinin təzahürüdür...”***

Bu abidə kompleksinin açılışından dərhal sonra 28 dekabr 2013-cü ildə Azərbaycan Respublikası Prezidentinin “Dədə Qorqud” dastanları əsasında çoxseriyalı bədii televiziya filminin çəkilməsi haqqında” imzaladığı Sərəncamında da dastanın Azərbaycanın tarixi coğrafiyasını bütün genişliyi ilə əhatə edən monumental epos və xalqımıza məxsus qədim adət-ənənələrin ulu babalarımızın dünya görüşünün mənəvi aləminin öyrənilməsində qiymətli mənbə olduğu xüsusi olaraq nəzərə çarpdırılmışdır.

“Kitabi-Dədə Qorqud” dünya miqyasında Azərbaycan oğuzlarının canlı tarixi, bədii nəsr təfəkkürünün möhtəşəm abidələrindən biridir. Fikrimizcə, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin “Kitabi-Dədə Qorqud”un alman dilinə ilk tərcüməsi və nəşrinin 200 illiyinin qeyd edilməsi haqqında” 20 fevral 2015-ci il tarixli Sərəncamı da mahiyyət etibarilə bu böyük Azərbaycançılıq abidəsinin dünya mədəniyyəti hadisəsi səviyyəsində dəyərləndirilməsi istiqamətinin daha da dərinləşməsinə uğurla xidmət edən ardıcıl dövlət siyasətinin məntiqi davamıdır.

“Kitabi-Dədə Qorqud”un alman dilində ilk tərcüməsi və nəşrinin 200 illiyinin Naxçıvan Muxtar Respublikasında qeyd edilməsi ilə bağlı Tədbirlər Planı Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 25 iyul 2015-ci il tarixli Sərəncamı ilə təsdiq edilmişdir. Tədbirlər planında “Naxçıvanda Dədə Qorqud” beynəlxalq elmi simpoziumun keçirilməsi, professor Səfərəli Babayevin “Naxçıvanda “Kitabi-Dədə Qorqud” toponimləri” monoqrafiyasının yenidən nəşr olunması, “Kitabi-Dədə Qorqud” və Naxçıvan” televiziya filminin hazırlanması, “Kitabi-Dədə Qorqud” dastanı və onun Naxçıvanla bağlılığı” mövzusunda açıq dərslərin təşkili, dəyirmi masaların keçirilməsi, kütləvi informasiya vasitələrində tematik verilişlərin, qəzet materiallarının hazırlanması və başqa məsələlər nəzərdə tutulub.

“Kitabi-Dədə Qorqud” dastanları dünya dastan yaradıcılığının nadir hadisələrindəndir. Görkəmli türk ədəbiyyatşünası Fuad Köprülü “Dədə Qorqud” dastanlarının əhəmiyyətini qabarıq şəkildə nəzərə çarpdırmaq üçün aşağıdakı kimi bir müqayisə aparmışdır: “Türk ədəbiyyatının bütün əsərləri tərəzinin bir gözünə “Dədə Qorqud” o biri gözünə qoyulsa, yenə də “Dədə Qorqud” tərəfi ağır gələr”. Bir sıra tədqiqatçıların fikrincə, dastanın yarandığı VII əsrə qədərki dövrdə, yaxud da boyların tam halda yazıya köçürüldüyü XVI əsrdə nə Qərbdə, nə də Şərqdə “Dədə Qorqud” səviyyəsində bədii nəsr nümunəsi olmuşdur.

“Kitabi-Dədə Qorqud” dastanları ilk dəfə adı elmə məlum olmayan şəxs tərəfindən 1052-ci ildə qələmə alınmışdır. Dastan, təxminən, beş əsr şifahi təzahür (formalaşma, inkişaf) dövrü yaşamış, bundan sonra XI əsrdə yazıya alınmışdır. Əlyazmanın üzü dəfələrlə (XI əsrdən XVI əsrə qədər) köçürülmüşdür. Drezden nüsxəsi də orijinal deyil, köçürülən nüsxədir.

“Kitabi-Dədə Qorqud” dastanlarında bəhs olunan hadisələrin V-VII əsrlərdə, bəzi boyların ondan da xeyli əvvəl olmaları ehtimal edilir. Dastan Azərbaycan oğuzlarından bəhs edir. “Dədə Qorqud kitabı” salnamədir, ədəbi əsər olmaqdan başqa, Azərbaycan-Oğuz dövlətinin ərəb işğalından əvvəlki müəyyən dövrün və ərəb işğalı ərəfəsinin, Oğuz zamanının tarixidir. Amma bədii şəkildə yazılıb. Bu dastana yalnız ədəbi ölçülərlə dəyərləndirilləsi əsər kimi baxmaq olmaz. Kitab həm də tariximizin, soykökümüzün, mənşəyimizin, məskənimizin müəyyənləşdirilməsi üçün də son dərəcədə etibarlı və mötəbər bir qaynaqdır.

Oğuzlar Azərbaycanın, demək olar ki, bütün ərazisində və indiki Ermənistan, Gürcüstan ərazisinin müəyyən hissələrində yaşayırdılar. Bu, azərbaycanlıların tarixən və indi yaşadıqları yerlərə tam uyğun gəlir.

Həmid Araslıya görə, dastanların ilk variantı – orijinalı Azərbaycanda yazıya alınmışdır. M.Ergin belə bir fikrə gəlmişdir ki, “Dədə Qorqud” dastanları Azərbaycan dilində yazılmış və azərbaycanlılara aid bir abidədir. “Dədə Qorqud kitabı”nın özü təsdiq edir ki, onun boyları Qafqazın cənub ətəkləri və bütövlükdə Azərbaycan ərazisilə bağlıdır, boylardakı əhvalatlar Kür-Araz düzənliyində, Şərur mahalında, Əlincəqala qoruqlarında, Dərəşamda, Ağcaqalada, Sürmәlidə, Ağqayada, Qaradərədə, Qara dağda, Kökcə dağda, Boyatda və sair yerlərdə baş verir. Bu adda yerlər isə Naxçıvan ərazisində, Araz üstündə, Zəngilanda, Göyçə mahalında, Ağcabədidə, Şəmkirdə, Şəkidə, Şirvanda, Abşeron torpağında bu gün belə mövcuddur.

Mahmud Kaşğarlının məlumatına görə, oğuzlar türklərin daha güclü boyudur. Bu boy öz daxilində müstəqil qollara ayrılır. Oğuz qolları 22-dir. Bunlardan “Qınıq”lar, “Boyandur”lar, “Əfşar”lar, “Bəgtili”lər, “Bükdür”lər, “Boyat”lar, “Beçənək”lər Azərbaycanın tarixi torpaqlarında daha çox məskunlaşmışlar.

“Dədə Qorqud kitabı”nda V-VII əsrlərin hadisə və əhvalatlarından bəhs edən Azərbaycan dövlətçilik ənənəsi əks olunmuşdur. V-VI əsrlərdə, bütövlükdə, Qafqaz Göy Türk xaqanlığına daxil idi. Azərbaycan müstəqil dövlət olaraq fəaliyyət göstərirdi. Onun 90 minlik qoşunu, özünəməxsus dövlətçilik ənənələri, ciddi qayda-qanunları vardı. “Qalın Oğuz” xaqanlığı “İç oğuz” və “Dış (Daş) oğuz” inzibati ərazilərinə bölünmüşdü. “İç oğuz” dedikdə Kür-Araz ovalığı (Aran) yerləşən torpaqlar nəzərdə tutulurdu. “Dış oğuz”a isə Şimali və Cənubi Azərbaycan vilayətləri, habelə gündoğan Anadolunun Van vilayəti və qalan ərazilər daxil idi. Erkən orta əsrlərdən Azərbaycan kimi tanınan Oğuz dövləti Urmiya, Göyçə gölü və Xəzər dənizi, Qızılüzən və Samur çayı, Dəmir qapı Dərbənd və Həmədan çevrəsi əraziləri əhatə edirdi.

“Kitabi-Dədə Qorqud”da Azərbaycanımızın ulu sələfi – oğuz eli təsvir olunur ki, bu eposda müasir mənada anladığımız dövlətçiliyin bütün əlamətləri var. Qədim dövlətçiliyimizdə ikihakimiyyətlilik olub: xaqan və şah hakimiyyəti. “Dədə Qorqud”da Bayandır xan xanlar xanıdır, Qazan xan bəylər bəyi. Qanunvericilik hakimiyyəti – hökm vermək, fərman vermək Bayandır xanın əlində, icra hakimiyyəti, habelə, ordu, iqtisadiyyat Qazan xanın əlində cəmləşib.

Dastanda ən nümunəvi cəhətlərdən biri də vahid dövlətçilik ideyasıdır. Bu məqsədlə oğuz bəyləri özlərində öz içərilərindən ağsaqqal seçmək, onun təklif və tapşırıqlarını sözsüz yerinə yetirmək amalı formalaşdırmışlar. Belə bəylərdən biri də Bayandır xan olmuşdur. Bayandır xan dastanda böyük bayraq götürən, oğuz igidlərinin vətəni qorumaq mübarizələrinə rəhbərlik edən bir dövlət başçısı kimi çıxış edir, dövlətçiliyi hər şeydən üstün tutur, dövlətə qarşı çıxanlara heç bir güzəştə getmir.

Dastanda oğuz elinin dövlətçiliyə, qanunların aliliyinə, ictimai ədalətin qorunmasına riayət və hörməti özünü qabarıq göstərir.

Dastanda belə bəylərdən biri də Salur Qazandır. Qazan xalqın ümidi, arxası, Qalın Oğuzun başçısı hesab edilir. O, bu etibarı və hörməti dövlət xidmətində qazanmışdır. Salur Qazan Oğuzun bütün dövlət işini aparır. O, dövlət qanunlarının pozulması hallarına yol vermir, Oğuza qarşı çıxan, onun birliyini pozub parçalamaq istəyən öz dayısı Aruzu belə öldürür və məmləkətin bütövlüyünü qoruyub saxlayır.

“Kitabi-Dədə Qorqud” qəhrəmanlıq, vətənpərvərlik haqqında dastandır. Burada oğuz igidlərinin Azərbaycana hücum edən erməni və gürcü feodallarına, onların havadarları olan Bizansa, həmçinin gürcü hakimləri ilə əlbir hərəkət edən qıpçaq türklərinə qarşı mübarizəsi daha geniş və daha parlaq əks olunmuşdur. Azərbaycan xalqının yadelllərə qarşı qəhrəmanlıq mübarizəsi səhifələri ilə zəngin olan “Kitabi-Dədə Qorqud” dastanları həm də xalqımızın zəngin oturaq mədəniyyətə malik olduğunu sübut edir. Dastanda Vətən anlamı – Dəmir qapı Dərbənddən tutmuş Göyçəyə, Əlincədən tutmuş Zəncana və Anadoluya qədərki əraziləri əhatə edir.

“Kitabi-Dədə Qorqud” həm də oğuzların əxlaq kitabıdır. Böyüyə hörmət, ata-anaya məhəbbət, ailəyə sədaqət – bu insani keyfiyyətlər oğuz övladlarının qanına ana südü ilə, ata nəfəsi ilə birlikdə daxil olur. Oğuz igidləri “ana haqqı tanrı haqqıdır” ifadəsini özləri üçün müqəddəs alın yazısı, həyat amalı seçmişlər.

*(Ardı var )*

İsmayıl HACIYEV
*AMEA Naxçıvan Bölməsinin sədri, akademik*

*Gəncliyimiz – gələcəyimiz*

## Tələbə adının sevinci



*Qəbul imtahanlarında hər il yüksək nəticə göstərən təhsil müəssisələrindən biri də Naxçıvan şəhərindəki 5 nömrəli tam orta məktəbdir. Təhsildə qazandığı uğurlarla həmişə diqqətçəkən bu təhsil ocağını 2014-2015-ci tədris ilində bitirən məzunlardan 46 nəfəri ali məktəblərə sənəd verib, onlardan 39-u tələbə adını qazanıb. 5 nəfər orta ixtisas məktəblərinə qəbul olunub. 12 nəfər 500-700 intervalında bal toplayıb. Məktəb üzrə ən yüksək bal toplayan isə Bətulə Əlizadədir. Onu oxucularımızla tanış edirik:*

– Valideynlərim təhsil sahəsində fəaliyyət göstərirlər. Ailəmizdə təhsilə hər zaman böyük maraq olub. Bu gün uğur qazanmağımda ailəmin rolunu xüsusilə qeyd etməliyəm. Təhsil aldığım məktəbdə həm yaradılan şərait, həm də müəllimlərimizin bizimlə məsuliyyətlə çalışmaları yüksək nəticə qazanmağımıza stimul olub. Zəngin maddi-texniki bazaya və müasir tədris şəraitinə malik olan məktəbimiz ən müasir informasiya texnologiyaları, dərslik, bədii ədəbiyyat və tədris vəsaitləri ilə təmin edilib. Yaradılan bu şərait biz gənclərin daha yaxşı təhsil almalarına geniş imkanlar açıb. Uşaqlıqdan dəqiq elmlərə marağım böyük olub. Bu fənlər üzrə olimpiadalarda iştirak etmişəm. Bu il keçirilən riyaziyyat üzrə fənn olimpiadasında gümüş medal qazanmışam. Bir arzum var idi ki, yüksək bal toplayaraq istədiyim ixtisası seçim. Bu arzuma çatdım. 687 bal toplayaraq Naxçıvan Dövlət Universitetinin Riyaziyyat-informatika müəllimliyi ixtisasına qəbul olundum. Qeyd edim ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovla görüşən gənclər sırasında olmağım mənim üçün qürurverici idi. Ali Məclis Sədrinin bu tövsiyələri yaddaşımdan silinməyəcək: ***“Bu gün kitab oxumaq, yaxşı təhsil almaq işin yalnız bir tərəfidir. Əsas məsələ özünü yüksək ixtisaslı kadr kimi hazırlamaqdır. Ona görə də seçdiyiniz ixtisasa dərindən yiyələnməli, kamil mütəxəssis kimi yetişməlisiniz”.***

Söz verirəm ki, vətənpərvər gənc, ixtisaslı mütəxəssis kimi yetişəcək, qədim Naxçıvanımızın daha da çiçəklənməsinə öz töhfəmi verəcəyəm.

✍ Sara ƏZİMOVA

## Hərbi hissələrə sovqat aparılıb

Naxçıvan Muxtar Respublikası Ali Məclisində 28 avqust 2015-ci il tarixdə keçirilmiş müşavirədə verilmiş tapşırıqların icrası ilə əlaqədar olaraq tədbirlər davam etdirilir. Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən ötən günlərdə Akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkı ərazisindəki mövcud meşələrdə və əkilmiş meyvə bağlarında olan ekoloji təmiz, saf meyvələr, əsasən, alma, alça, şaftalı tədarük edilmişdir. Nazirliyin əməkdaşları 9 sentyabr və 10 sentyabr tarixlərində N hərbi hissələrdə əsgərlərlə görüş keçirmiş və 3 tona yaxın toplanmış meyvə sovqat kimi onlara təqdim olunmuşdur. Hərbi hissələrin zabit və əsgərləri bu görüşləri yüksək qiymətləndirmiş və qeyd edilmişdir ki, ordunun bütün təminatı ən yüksək səviyyədədir. Bu görüşlərin keçirilməsi mənəvi baxımdan əhəmiyyətlidir.

*Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidməti*

# Yaşıllıqlar Naxçıvan şəhərinə xüsusi gözəllik bəxş edir



*Azərbaycanın davamlı və sürətli tərəqqisinin canlı nümunəsi olan Naxçıvan bu gün regionun ən gözəl şəhərlərindən birinə çevrilib. Ölkəmizin bir parçası olan doğma diyarımız gözlərimiz önündə tikilir, abadlaşır, yaşıllaşır.*

Əhalinin sağlamlığının qorunmasında yaşıllıqların əhəmiyyəti misilsizdir. Bunu hər birimiz yaxşı bilirik. Yaşıllıq iqlimi, havanı mülayimləşdirir, quraqlıq və quru küləklərin qarşısını alır, atmosferin kimyəvi çirkləndiricilərinin bir hissəsini udur və dəyişdirir, həmçinin təbii fon şüalanması və səs-küyün azaldılması kimi funksiyaları yerinə yetirir. Bu nəzərə alınaraq muxtar diyarımızda yaşıllığın artırılmasına xüsusi diqqət yetirilir. Nəticə göz önündədir. Gündən-günə gözəlləşən Naxçıvan şəhərində geniş vüsət alan abadlıq və quruculuq işləri ilə yanaşı, yeni yaşıllıq sahələrinin salınması da diqqət mərkəzindədir. Çünki təbiəti qorumaq, təbii sərvətlərdən səmərəli istifadə etmək, yaşıllıqların mühafizəsinə nəzarəti gücləndirmək sağlamlığımızın təminatıdır.



Yollar boyunca salınmış yaşıllıqlar, əkilən gül və bəzək kolları, dekorativ ağaclar göz oxşayır və şəhərimizə xüsusi gözəllik verir. Yamyaşıl otlar sanki xalıdır. Buta şəklində əkilmiş çiçəklər yaşıl otların arasında qədim xalılardakı naxışları xatırladır.

Bu gün hər birimiz şəhərimizin yaşıllığı ilə öyünür, güllü-çiçəkli, hər zaman səliqə-sahmanda olan park və xiyabanlarında ruhi rahatlıq tapırıq. Gözəlliyi ilə gözümüzü oxşayan, qəlbimizə fərəh bəxş edən bu aləmi yaradanlar var. Onlar ilin bütün fəsillərində işlərinin başındadırlar. Yağışlı-qarlı günlərdə də, qızmar Günəşin od yağdırdığı vaxtlarda da. Bəli, əbəs yerə deməyiblər ki, bağa baxarsan bağ olar, baxmazsan dağ.

Onları çoxlarınız tanıyırsınız. Naxçıvan Şəhər Yaşıllaşdırma İdarəsinin işçiləridirlər. İşləri də yaşıllıqların sayını artırmaq, onlara qulluq göstərməkdir. Bu işdən təkcə maaş alıb, ailə dolandırmırlar, həm də yaratdıqlarından mənəvi zövq alırlar. Bu insanlar hər zaman tapşırılan işin öhdəsindən bacarıqla gəlirlər. Onlar şəhərimizin təkcə park və xiyabanlarının deyil, yol kənarlarının, hər bir tikilən inzibati və ictimai yaşayış binalarının ətrafının yaşıllaşdırılmasına da öz töhfələrini verirlər.

Naxçıvan Şəhər Yaşıllaşdırma İdarəsinin müdiri Fətulla Nabatov bildirdi ki, 2015-ci ilin ötən dövrü ərzində şəhərimizin yaşıl örtüyünün artırılması istiqamətində ardıcıl işlər görülüb. Hazırda idarənin işçiləri parklar, xiyabanlar, yol kənarları daxil olmaqla, ümumilikdə, 798 hektar sahəyə qulluq edirlər. Yaz iməciliyi dövründə qulluq edilən sahələrə 230 ədəd meşə, 5 min 100 ədəd müxtəlif meyvə, 4 min 800 ədəd həmişəyaşıl ağac əkilib. 12 min 600 ədəd müxtəlif gül kolları, 380 ədəd dekorativ kol və 25 min ədəd birillik gül kolları basdırılıb. 3 hektar ərazidə meşə-bərpa işləri aparılıb, 8 hektara isə qazon ot toxumu səpilib.

Payız iməciliyinə hazırlıqla əlaqədar Yaşıllaşdırma İdarəsinin tingçilik sahəsində 8 min ədəd müxtəlif meşə, 90 min ədəd müxtəlif meyvə, 60 min ədəd ərik və badam dənəsi, 40 min ədəd həmişəbahar gül kolu əkilib.



Eyni zamanda öz yaşıllığı və təmizliyi ilə hər zaman fərqlənən şəhərimizdə ayrı-ayrı idarə və müəssisələrin, təhsil ocaqlarının kollektivləri vaxtaşırı iməciliklər keçirir, yaşıllıqların artırılmasında fəal iştirak edirlər. Bu gün əkilən hər yeni ağac böyüdükcə küçələrimizi gözəlləşdirməklə yanaşı, ətrafa təmiz havanın yayılmasına da yardımçı olacaq. Bu ağaclar boy verdikcə, onları əkənləri, eyni zamanda suvaranları, küçə və xiyabanlarda, parklarda təmizliyi qoruyanları, hər bir şəhər sakinini fərəhləndirəcək.

Yaşıllaşdırma İdarəsinin isti yay günlərində qayğıları daha çoxdur. Bu da təbiidir. Çünki illərlə qorunub ərsəyə gəlmiş ağacları, yaşıl örtükləri, təbii və dekorativ gül kollarını qızmar Günəşdən, bürküdən, istidən qorumaq elə də asan deyil. Bizsə əminik ki, Naxçıvanımızın yaşıl dünyası belə qayğı ilə bəslədiyi üçün öz gözəlliyini daim qoruyacaqdır. Elə biz vətəndaşlara da təkcə onları qorumaq qalır.

**Gülnar YÜZBAŞIYEVA**

---

*Avqust ayında muxtar respublikamızda epidemioloji vəziyyət sabit olmuş, zəhərlənmələr baş verməmiş, infeksiya ocaqlarında profilaktik və epidemiya əleyhinə tədbirlər həyata keçirilmişdir.*

# Muxtar respublikada epidemioloji vəziyyət sabitdir

Yenidoğulmuş uşaqların 97,8 faizi idarəolunan yoluxucu xəstəliklərə görə peyvənd almışdır. Mövsümi xəstəliklərin və zəhərlənmələrin qarşısını almaq məqsədilə qidalanma sənayesi, kommunal, ictimai iaşə, ticarət, su təchizatı, müalicə-profilaktika müəssisələrinin rəhbərlərinə müvafiq göstərişlər verilmiş, su təchizatı sistemlərində, ictimai, inzibati və fərdi binalarda, məişət tullantıları qoyulan meydançalarda 28 min 411 kvadratmetr dezinfeksiya tədbirləri həyata keçirilmişdir.

İstehsal olunmuş məhsulların sertifikatlaşdırılması işi Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi ilə birgə aparılmış, 27 məhsul sertifikatlaşdırılmışdır.

Ay ərzində bakterioloji laboratoriya fəaliyyətini davam etdirmiş, 88 su, 463 yuyuntu nümunələrinin, 324 digər nümunələrin müayinələri aparılmışdır.

Obliqat qrupların bakterioloji müayinələri diqqət mərkəzində saxlanılmış, səhiyyə üzrə 109, təhsil üzrə 139, qidalanma sənayesi, ictimai iaşə və ticarət üzrə 320, kommunal sahələr üzrə 77, sürücülük üzrə 12 nəfər olmaqla, bütövlükdə, 657 nəfər müayinədən keçmişdir.

Sanitariya-kimyəvi laboratoriyalar şöbəsinin qidalanma gigiyenası laboratoriyasında 42 nümunədə 198 müayinə aparılmış, o cümlədən yerli istehsal olan xörək duzu nümunələrində yodun, həmçinin 3 un nümunəsində bəsit elektrolit dəmir preparatlarının tələbata uyğunluğu müəyyən edilmişdir.

Kommunal gigiyena laboratoriyasında 65 nümunədə 520, toksikoloji, xarici mühitdə və ərzaq məhsullarında zəhərli kimyəvi maddələrin qalıq miqdarının təyini laboratoriyasında 46 nümunədə 122 müayinə aparılmışdır.

Əhalinin sanitar-epidemioloji vəziyyətinin yaxşılaşdırılması məqsədilə muxtar respublikanın sanitar-epidemioloji xidmət orqanları tərəfindən obyektlər sanitar-gigiyenik vəziyyətə görə yoxlanılmış, aşkar olunmuş nöqsanların aradan qaldırılması üçün 29 xəbərdarlıq edilmişdir.

---

*Yeni nəşrlər*

# Müxtəlif etiologiyalı zəhərlənmələr




Naxçıvan Muxtar Respublikası Yoluxucu Xəstəliklər Mərkəzinin həkim infeksionisti Süleyman Cabbarovun "Müxtəlif etiologiyalı zəhərlənmələr" adlı yeni kitabı "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində işıq üzü görmüşdür. Bu metodik məsləhət uzun illərin təcrübəsinə əsasən, zəhərlənmələr zamanı orqanizmdə baş verən patoloji dəyişikliklər, əlamətlər, xəstəliklərin gedişi, müalicə prinsipləri və profilaktikası haqqında məlumat verilməsi və təcrübədə tətbiq olunması üçün hazırlanmışdır.

Metodik tövsiyələrin giriş hissəsində bildirilir ki, zəhərlənmələr geniş məfhum olmaqla, təkcə ərzaq məhsulları ilə deyil, digər yollarla da səhvən və ya bilərəkdən hər hansı bir zəhərli maddənin mədəyə, tənəffüs yollarına, dəriyə, selikli qişalarla orqanizmə daxil olması ilə baş verir. Zəhərin xarakterindən, daxilolma konsentrasiyasından, təsir mexanizmindən və digər amillərdən asılı olaraq yüngül, orta ağır, ağır və ölüm təhlükəsi olan çox ağır zəhərlənmələrə rast gəlinir.

Bakteriya, qeyri-bakteriya mənşəli qida zəhərlənmələri, kimyəvi birləşmələrlə zəhərlənmələr, səbəbi müəyyən edilməmiş qida zəhərlənmələri qəflətən meydana çıxır. Qida toksikoinfeksiyalarının, eləcə də digər mənşəli zəhərlənmələrin orqanizmin həmin zəhərə və ya infeksiyaya cavab reaksiyasından, orqanizmin immun statusundan və yaşdan asılı olaraq gedişləri fərqli ola bilər. İmmun statusu zəif olanlar, uşaqlar və ahıllaşlı adamlar bu proseslərə daha həssas olur və zəhərlənmələri daha ağır keçirirlər. Onlarda zəhərlənmə əlamətləri daha tez meydana çıxır və nisbətən ağır nəticələr baş verir. Metodik tövsiyələrin yazılmasında məqsəd profilindən asılı olmayaraq, xəstəyə vaxtında və adekvat tibbi yardım göstərilməsinə nail olmaq imkanı əldə edilməsindən ibarətdir. Tövsiyələr tibb müəssisələrinin müvafiq şöbələrində işləyənlər, eləcə də oxucular üçün faydalı bir vəsaitdir.

Tibb üzrə fəlsəfə doktorları M.İbrahimov və A.Mirişli tərəfindən rəy verilmiş kitabda 12 elmi ədəbiyyatdan istifadə olunmuşdur. Xatırladaq ki, bu, müəllifin son iki ildə oxuculara təqdim etdiyi dördüncü kitabdır.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

---

*Dünyanın ən təmiz varlıqları körpələrdir. Körpələrin üzlərindən məsumluq, gözlərindən xoşbəxtlik yağır. Onlara baxanda bütün qəm və kədərimizi unuduruq. Dünyanın enişli-yoxuşlu yollarından, dərd-qəmindən bixəbər olan körpələr bilmirlər ki, həyat nədən ibarətdir? Bu həyatda onları nələr gözləyir?*

# Körpələrin qayğı ilə əhatə olunduğu ünvan

Çox kiçik yaşlarından həyatın ağır yüklərini balaca qəlblərində daşıyan, valideyn sevgisindən uzaq olan körpələr də var. İrqindən, dinindən asılı olmayaraq, dünyanın hər yerində belə uşaqların köməyə və müdafiəyə, xoş sözə, ilıq münasibətə, qayğıya böyük ehtiyacları var. Muxtar respublikamızda bu məsələ öz həllini yüksək səviyyədə tapıb. Naxçıvan şəhərində fəaliyyət göstərən Körpələr Evi və Ailələrə Dəstək Mərkəzi valideyn himayəsindən məhrum olan və sağlamlıq imkanları məhdud uşaqlar üçün yaradılıb. Müəssisənin baş həkimi Rəsmiyyə Xasayeva ilə söhbətimiz zamanı aydın oldu ki, bu müəssisənin digərlərindən fərqi odur ki, 24 saat fəaliyyətdədir. Günün istənilən vaxtında valideynlər uşaqlarını bura qoyub öz işlərinin arxasınca gedə bilərlər. Körpələr evində çalışan kollektivin üzərinə böyük məsuliyyət düşür. Onlar uşaqların təlim-tərbiyəsi ilə məşğul olmaqla yanaşı, eyni zamanda sağlam böyüməsinə də cavabdehdirlər. Bunun üçün də burada hərtərəfli şərait yaradılmışdır. Uşaqlar üçün əyləncə vasitələri, yelləncəklər qurulmuşdur. Mərkəzdə uşaqlar üçün məşğələlər təşkil olunur, bu məşğələlərdə onlara yazmaq, oxumaq, saymaq öyrədilir, müxtəlif sahələr üzrə uşaqların istedad və bacarıqları üzə çıxarılır. Valideyn himayəsindən məhrum olan uşaqlar müəyyən yaş həddinə çatdıqda Ordubad şəhərindəki internat məktəbində təhsillərini davam etdirirlər.

Körpələr evi hər zaman insanların diqqət mərkəzindədir. Xüsusilə də bayram günlərində. Həmin günlərdə müəssisə bura axışan qonaqları böyük həvəslə qarşılayır. Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, Səhiyyə Nazirliyinin, Naxçıvan Dövlət Universitetinin, Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin, Naxçıvan Dövlət Kukla Teatrının və bir çox idarə, təşkilatların əməkdaşları balacaları tək qoymurlar. Həmçinin uşaqların ad günlərində buraya üz tutur, onlara sovqatlar gətirirlər.

Burada gördüklərimiz, uşaqlarla söhbətlərimiz bizdə belə qənaət yaratdı ki, Körpələr Evi və Ailələrə Dəstək Mərkəzini uşaqlar özlərinə doğma ocaq sayırlar. Çünki burada onların yüksək səviyyədə qayğısına qalınır.

**Nigar MUSTAFAYEVA**

---

***İtmişdir***

Kəngərli rayonunun Qarabağlar kənd sakini Mənsimov Kirman İbrahim oğlunun adına olan JN-1098A inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

* * *

Kəngərli rayonunun Xok kəndində yaşamış Hüseynova İmmi Müseyib qızının adına olan JN-411A inventar nömrəli, 10800038 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 701